## Faşist Almaniyasının keçmiş SSRİ üzərinə hücumundan 75 il ötür

# Getsin o günlər bir də qayıtmasın

1941-ci ilin iyun ayının 22-də faşist Almaniyası qəflətən Sovet İttifaqının ərazisinə hücum etdi. Məlum olduğu kimi bu müharibənin təməli 1939-cu ilin sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlamış və 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslimi ilə başa çatmışdır. İkinci Dünya müharibəsinə başlamaqla Hitler Almaniyasının məqsədi SSRİ-ni qısa müddətdə təslim etmək və sonra Avropanı işğal edərək dünyaya ağalıq etməkdən ibarət idi. Adolf Hitler eyni zamanda Qərb və Şərq arasında əhəmiyyətli strateji coğrafi mövqeyə malik olan Azərbaycanla bağlı xüsusi plan hazırlamışdı. Hitlerin planında ilk vaxtlar Azəraycanda komissarlıq idarə forması yaranmalı idi. Amma İkinci Dünya müharibəsində məğlub olan Adolf Hitlerin niyyəti alt-üst oldu. Böyük Vətən müharibəsinə o vaxt SSRİ-nin tərkibində olan bütün müttəfiq respublikanın xalqları kimi Azərbaycan xalqı da qoşulmalı oldu. Bu ölüm-dirim müharibəsinə qoşulan xalqımızın mərd oğul və qızları cəbhəyə gedərək silaha sarıldı. Arxa cəbhədə qalanlar isə orduya sovqatlar yola salmaq məqsədilə istehsalatın müxtəlif sahələrində çalışmış, ət, süd, yun taxıl istehsal etmişlər. Bu cahan müharibəsində iştirak etmək üçün qısa müddətdə respublika üzrə 87 qırıcı təyyarə batalyonu, 1124 özünümüdafiə batalyonları təşkil olunmuşdu. 600 mindən çox azərbaycanlı cəbhəyə səfərbər olunmuşdu. Azərbaycanlılardan ibarət dörd milli diviziya yaradılmışdı. 416-cı, 217-ci, 77-ci və 223-cü milli diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı bir döyüş yolu keçmişlər. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə eloğlumuz keçik leytenat İsrafil Məmmədov ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adını qazandı. Ümumiyyətlə, İkinci Dünya müharibəsinin döyüşlərində 100 nəfərdən çox azərbaycanlı ən yüksək hərbi ada-Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdu.

Müharibə illəri dövründə respublika iqtisadiyyatının yüngül və yeyinti sənaye sahələri hərbiləşdirildi. Həmin dövrdə Bakı şəhəri döyüşən ordunun cəbhəxanasına çevrildi. Yaranmış böyük çətinliklərə baxmayaraq Bakı neftçiləri döyüşən ordunu yanacaqla təmin edirdilər. Deməк olar ki, Sovet Ordusunun təyyarə və tankları Bakı nefti ilə işləyirdi. Bundan əlavə Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Qadınlarımız da döyüşçülər üçün yundan corab, əlcək, köynək toxuyub müharibə fonduna verirdilər.

1941-1945-ci illərdəki müharibədə Qəbələnin 6 min nəfərdən çox oğlu və qızı döyüşlərdə şücaət göstərmişdir. Onlardan əksəriyyəti döyüşlərdə həlak olmuş, geri qayıdanların çoxu müxtəlif bədən xəsarəti almışdır.

İndi rayonumuzda Böyük Vətən müharibəsində iştirak edən həmyerlilərimizin sayı azalmışdı. Amma sağ qalan müharibə veteranlarımızın keçdiyi şərəfli döyüş və həyat yolu gənclərimiz üçün örnək olmuşdur. Gənclərimiz olnlarla tez-tez görüşür, müharibə xatirələrini dinləyirlər.

Bir sözlə, getsin o cünlər, bir də qayıtmasın.

**Aslan CƏLİLOV.**

# Taxıl yığımına hazırıq

Rayonumuzda taxılçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri zəmilərdə bol məhsul yetişdiriblər. Zəmilərin hər hektarından orta hesabla 30 sentnerdən çox məhsul gözlənilir. İlkin hesablamalar göstərir ki, taxıl yığımı dövründə 70 min tona yaxın məhsul tədarük ediləcəkdir. Sözsüz ki, bu da rayon əhalisinin çörək və çörək məhsullarına olan ehtiyacının daxili mənbələr hesabına ödənilməsinə yardımçı olacaqdır.

Hazırda taxılçılarımız böyük zəhmətin sayəsində yetişdirdikləri məhsulu zəmilərdən tez və itkisiz toplamaq məqsədilə son hazırlıq işləri görürlər. Belə ki, biçin-yığım kampaniyasında iştirak edəcək kombaynlar, şum traktorları, taxıl daşıyan texnika təmir edilmiş, taxıl saxlanılan anbarlar təmizlənmiş və dərmanlanmışdır. Taxıl yığımında ilk günlərdə 90 ədəd kombayn, xeyli sayda şum traktoru, taxıl daşıyan texnika və yedəkli traktorlar iştirak edəcəkdir.

Taxıl yığımı kampaniyasına həmişə olduğu kimi yenə də Gilan MMC-nin aqrar bölməsi, «Həsrət» fermer təsərrüfatı, Nic qəsəbəsinin, Kürd, Bayramkoxalı, Əmirvan, Zalam, Yeni Dizaxlı kəndlərinin əməkçiləri daha yaxşı hazırlaşmışlar. Adları qeyd edilən bölgələrin taxılçıları zəmilərdən məhsulu ən qısa müddətdə, yeni 10-12 iş günündə yığmağı qarşılarına məqsəd qoyublar. Bu il iyun və iyul aylarında taxılçılar 22510 hektar sahənin məhsulunu toplayacaq. Bundan 16010 hektarı buğda, 6500 hektarı arpa sahələri təşkil edir. Taxıl yığımını itkisiz və fasiləsiz başa çatdırmaq üçün «Aqrolizinq» ASC-nin rayondakı filialı fermerlərin və torpaq mülkiyyətçilərinin yaxın köməkçisi olacaqdır, Filial taxılçıları texnika ilə təmin edəcək, bu da işin ahəngdarlığını və sürətini daha da artıracaqdır.

Həmçinin biçində iştirak edəcək texnika üçün lazımi ehtiyat hissələri ilə təmin ediləcək.

Qeyd etmək lazımdır ki, taxıl yığımı dövründə yanğına qarşı mübarizə tədbirlərinə xüsusi önəm veriləcəkdir. Bu məqsədlə taxılçılar arasında geniş maarifləndirmə işləri aparılacaq, şum traktorlarından, yanğınsöndürən vasitələrdən istifadə olunacaq.

**(Ardı 6-cı səhifədə).**

## 17 iyun–səhiyyə işçilərinin peşə bayramı günüdür

# Milli səhiyyə sistemimiz inkişaf edir

Hər il iyun ayının 17-də ölkəmizdə səhiyyə işçiləri öz peşə bayramını yüksək səviyyədə qeyd edirlər. Bu, günün təsis edilməsi Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır. 2001-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsis edilmiş həmin günün tarixə düşməsi təsadüfi deyil. 98 il bundan əvvəl may ayının 28-də Azərbaycan Xalq Cümhüriyyəti hökuməti təşkil edildikdən sonra onun ilk qərarlarından biri Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar olmuşdur. Həmin qərar 1918-ci il iyun ayının 17-də imzalanmışdı. Beləliklə, Səhiyyə Nazirliyi təşkil olundu. İlk səhiyyə Naziri Xudadat bəy Rəfibəyli oldu. Yeni təşkil olunmuş nazirliyin qarşısında o vaxtlar geniş yayılmış vəba, taun, qızılca, vərəm, malyariya kimi keçici xəstəliklərin qarşısını almaq, xəstəxanalar və feldşer məntəqələri açmaq, ixtisaslı həkimlər və tibb bacıları hazırlamaq kimi vəzifələr dururdu. Bu məqsədlə Azərbaycan hökuməti xarici ölkələrə oxumaq üçün 100 nəfərdən çox istedadlı gənc göndərmişdi. Onlar tibb təhsili aldıqdan sonra Azərbaycanda tibbin inkişafında yeni mərhələ başlandı.

Azərbaycanda ikinci dəfə müstəqillik qazanıldıqdan sonra milli səhiyyəmizin təməl daşının qoyulduğu günün tibb işçilərinin peşə bayramı kimi qeyd edilməsi ümummilli liderimiz Heydər Əliyevin tariximizə olan həssas münasibətlərinin bariz nümunəsi kimi qiymətləndirilməlidir. Hazırda Azərbaycan səhiyyəsinin dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə dövlət səviyyəsində bütün zəruri tədbirlər görülür.

2003-cü ildən bəri səhiyyə sisteminin inkişaf etdirilməsində çox mühüm işlər görülmüşdür. Belə ki, səhiyyə sisteminin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Prezident İlham Əliyev respublika həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə ocaqlarının da inkişafına, bu sahədə mövcud problemlərin tez bir zamanda aradan qaldırılmasına xüsusi əhəmiyyət verir. Cənab Prezident çıxışlarında dəfələrlə vurğulamışdır ki, «biz artan iqtisadi imkanlarımızı ilk növbədə sosial sahələrin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik».

Hazırda Səhiyyə Nazirliyi sistemində ümumi çarpayı fondu, stasionar tipli tibb müəssisələrinin, ambulator poliklinikaların sayı xeyli artmışdır. Bu müssisələrdə minlərlə həkim və orta tibb işçisi çalışır.

Ölkə başçısının təşəbbüsü ilə son illərdə səhiyyə nazirliyi tərəfindən ən vacib sahələr üzrə qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı», «Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı», «Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı», «Onkoloji xəstələrin həyati vacib şüa əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı» həyata keçirilir. Bütün bu proqramlar insanların sağlamlığına etibarlı təminat yaradır.

Son illər ölkəsmizdə, o cümlədən Qəbələdə də səhiyyə müəssisələrinin inşası, əsaslı təmiri və yenidənqurulmasında çox böyük işlər görülmüşdür. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının regionlarnın sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən ARDNŞ-nin maliyyə vəsaiti hesabına rayonumuzda beynəlxalq standartlara cavab verən müalicə-diaqnostika mərkəzi tikilib əhalinin istifadəsitnə verilmişdir.

Bu, çox vacib əhəmiyyət kəsb edən müalicə ocağının 2008-ci ildə açılışında dövlətimizin başçısı cənab İlham Əliyev iştirak etmiş, mərkəzdə çalışan tibb işçilərinə xeyir-dua vermiş, onlara müraciət edən hər bir insana qayğı ilə yanaşmağı arzulamışdır.

Dövlət başçısının bu müalicə-diaqnostika mərkəzinin açılışında şəxsən iştirak etməsi onun səhiyyə sisteminə yüksək qayğısının əyani təzahürü kimi diqqəti çəkir.

Fərəhli haldır ki, qısa zaman kəsiyində bu müalicə ocağının şöhrəti ətraf rayonlara da yayılmışdı. İlk vaxtlar az saylı həkim mütəxəssisləri ilə fəaliyyətə başlayan diaqnostika mərkəzinə indi qonşu rayonlardan da müayinə və müalicə üçün müraciət edənlər olur. Burada çalışan həkim və tibb bacıları, xidmət personalı pasentləri doğma adamları kimi qəbul edir, onların tezliklə sağalıb ailələrinə qayıtmasına səy göstərirlər. Hazırda hər cür müasir tibbi avadanlıqla təchiz edilmiş, əlverişli şəraiti və yüksək ixtisaslı tibb personalı olan müalicə ocağında sağlam psixoloji mühit hökm sürür və bura üz tutan insanlarda həyat eşqini gücləndirmək prinsiplərinin reallaşdırılmasına daim diqqət yetirilir. Buna görə son zamanlar mərkəzə müraciət edən insanların sayı xeyli çoxalmışdır.

Dörd mərtəbəli mərkəz inzibati şöbədən, konsultativ poliklinikadan, stasionar qəbul, cərrahiyyə, şüa-diaqnostika, fizioterapiya, dializ, anesteziologiya və reanimasiya şöbələrindən, müasir tipli laboratoriyadan, əməliyyat və ümumi stirilizasiya bloklarından ibarətdir. Ən yaxşı haldır ki, Səhiyyə Nazirliyi tibb ocağının kifayət qədər müasir avadanlıqla təmin edilməsi üçün köməyini əsirgəmir.

Təqdirəlayiq haldır ki, Müalicə-Diaqnostika Mərkəzinin kollektivi hər il milli və tarixi bayram günlərinin, həmçinin tarixi şəxsiyyətlərin anadan olan günlərinin keçirilməsinə xususi önəm verir. Burada keçirilən Yeni il, Novruz bayramı şənlikləri daha təntənəli qeyd edilir. Hər il kollektivimiz ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olan günlərində onların abidələrini ziyarət edir, abidələri önünə gül dəstələri qoyaraq əziz xatirələrini hörmətlə yad edirlər.

Əziz tibb işçiləri, Peşə bayramınız mübarək!

**Ceyhun ƏHMƏDOV,**
**Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi.**